*UOT 37.0*

***Nabat Natiq qızı Əhmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
https://orcid.org/0009-0008-4325-4533

# ORTA İXTİSAS TƏHSİLİ SİSTEMİNDƏ TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

***Набат Натиг гызы Ахмедова***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ ЛИЧНОСТИ СТУДЕНТА В СИСТЕМЕ СРЕДНЕГО ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ

***Nabat Natig Ahmadova***
*teacher at Azerbaijan State Pedagogical University*

# FACTORS AFFECTING THE DEVELOPMENT OF STUDENT PERSONALITY IN THE SYSTEM OF SECONDARY VOCATIONAL EDUCATION

**Xülasə:** Elmi məqalədə orta ixtisas təhsili sistemində təlim prosesində tələbə şəxsiyyətinin inkişafına təsir göstərən amillər ortaya çıxarılmışdır. Eləcə də mühazirə və seminar məşğələlərinin məqsədi, tələbə şəxsiyyətinin inkişafındakı tərəfləri açıqlanmışdır.
***Açar sözlər:*** *tələbə, şəxsiyyət, uyğunlaşma, təlim, tərbiyə, müəllim*

**Резюме:** В научной статье выявлены факторы, влияющие на развитие личности студента в учебном процессе системы среднего профессионального образования. Также разъясняются цели лекций и семинаров, аспекты развития личности студента.
***Ключевые слова:*** *студент, личность, адаптация, обучение, воспитание, педагог*

**Summary:** In the scientific article, the factors affecting the development of the student's personality in the training process of the secondary vocational education system have been revealed. Also, the purpose of lectures and seminars, aspects of student personality development are explained.
***Key words:*** *student, personality, adaptation, training, upbringing, teacher*

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir ki, "Müasir dövrdə təhsilin məqsədi Azərbaycan dövləti qarşısında öz məsuliyyətini başa düşən, xalqının milli ənənələrinə və azadlıq prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmətlə yanaşan, vətənpərvərlik ideyalarına qarşı sədaqətli, azad və yaradıcı düşünən bir gənc və şəxsiyyət böyütmək (1, s.11).

Orta ixtisas müəssisələrində istər mühazirənin, istərsə də seminarın başlıca məqsədi demək olar ki, eyni xarakter daşıyır: tələbə oğlan və qızları dərin və möhkəm biliklərə yiyələndirmək, gənclərdə müntəzəm və müstəqil surətdə bilik əldə etmək səyi yaratmaq, həmin biliklərin yaradıcı şəkildə təbiət və cəmiyyət hadisələrinə, özünün nəzəri və praktik fəaliyyətinə düzgün tətbiq etmək bacarığı formalaşdırmaqdır.

Tələbənin şəxsiyyətinin inkişafında özünütəhsilin, özünü inkişaf etdirməyin rolu da çox böyükdür. Təbii ki, əqli inkişaf düz xətt üzrə getmir. Bu, tələbənin zehni inkişafına da aiddir. B.H. Əliyeva və R.V. Cabbarova görə, "bir sıra psixoloji problemlər təhsil subyektlərinə şəxsiyyət kimi yanaşılmaması fonunda ortaya çıxır (frustrasiya halları, emosional tarazılığın pozulması, depressiya) və s. Bu zəmində davranışda təzahür edən qeyri-adekvat özünəmünasibət, aşağı özünüqiymətləndirmə, öz imkanlarına inanmamaq və s. bu kimi hallar tələbələrin psi-

xikasında dezontogenez hallarının yaranmasına səbəb olur” (3, s. 78).

Gənclər orta ixtisas təhsil müəssisələrinə daxil olmaqla yeni bir aləmə qədəm qoyur, bütün həyata, elmlər sisteminə, insanlara başqa nəzərlə baxır, bəzən bir məlumluqda məchulluq, kamillikdə nöqsan, bitkinlikdə natamamlıq, qüsurda məziyyət axtarırlar. Gah özlərindən sanki uzaqlaşır, elə bil onu unudur, gah da öz “Mən”ini hadisələrin mərkəzinə çəkirlər. A. Hacıyeva yazır: “Tələbəliyin ilk aylarından başlayaraq tələbə gənclər heç bir hazırlıq keçmədən tamamilə yeni sosial əlaqələrə daxil olur, fərqli, daha çox müstəqillik, yaradıcılıq və məsuliyyət tələb edən sosial rolları icra etməli olurlar. Ona görə də tələbələrdə ilk növbədə qeyri-müəyyənlik, ehtiyatlılıq, qorxu və həyəcan hissi güclənir” (5, s.177).

Deməli, tələbələr sosial risklər əhatəsində yaşamaqla müxtəlif insan münasibətlərinin, rəqabət mühitinin əhatəsinə düşürlər. Orta ixtisas təhsil müəssisələrində təhsilin ilk illəri adaptasiya prosesidir. F. Rüstəmov yazır: “(lat. Adaptagtio - uyğunlaşma) və ya alovlanma, orqanizmin ətraf mühitə, düşdüyü şərtlərə uyğunlaşması deməkdir”. (6, s. 16)

Uyğunlaşma bir insanın sosiallaşmasının ayrılmaz bir hissəsi kimi də qəbul edilə bilər. Psixoloqlar və sosioloqlar uyğunlaşmanın iki növünü ayırırlar:

- psixofizioloji uyğunlaşma
- sosial-psixoloji uyğunlaşma

Psixofizioloji uyğunlaşma analizatorların fəaliyyəti və onların həssaslığındakı dəyişikliklərlə, sosial-psixoloji adaptasiya isə fərdin yeni bir sosial vəziyyətə girməsi ilə əlaqələndirilir. Sosial-psixoloji uyğunlaşmanın nəticələrinə görə iki növ ayrılır:

-müsbət;

-mənfi;

Mexanizmlə iki növ sosial-psixoloji uyğunlaşma fərqlənir:

-könüllü;

-məcburu;

Sosial-psixoloji adaptasiya xüsusi bir sosiallaşma prosesidir. Sosiallaşmanın məzmunu sosial təsirlər, media, mədəniyyət, davranış normaları, siyasi proqramlar, şəxsiyyət xüsusiyyətləri, şəxsiyyəti təsir edən mühit və sosial vəziyyətlər ilə müəyyən edilir.

Sosial-psixoloji uyğunlaşma spesifik bir sosiallaşma prosesidir. Bir şəxsin yeni bir fəaliyyət növünə alışdığı peşəkar uyğunlaşma adlı xüsusi bir uyğunlaşma forması var. Fəaliyyət növü dəyişdikcə insan işləyə bilməli və daxili mühitin müəyyən sabitliyini saxlamalıdır. Peşəkar uyğunlaşma dəyişən bir mühitdə səmərəliliyin təmin olunmasına kömək edir.

Günümüzdə peşəkar uyğunlaşma insanların birgə fəaliyyətini təmin edir, fəaliyyət metodları dəyişir, iş şəraiti dinamik olur. Bu vəziyyətdə qruplara və birliklərə birləşən insanların hədəflərinin yaxınlaşması, istiqamətləndirilməsi, qrupun rol strukturuna daxil olması, qrup normalarının, ənənələrinin və qrup mədəniyyətinin qəbul edilməsi prosesi mövcuddur.

Professional adaptasiya insanın özündə müvafiq daxili dəyişikliklər etməsi bacarığından çox asılıdır. Təbiidir ki, insan bu halda öz arzu, istək və maraqlarını qrupla uzlaşdırmalı, ümumi məqsədlər uğrunda mübarizəyə qoşulmalıdır.

Gəncləri tələbə həyatına cəlb etmək, yəni, uyğunlaşma prosesi bu təhsil müəssisəsində həyata inteqrasiya etmək üçün bir təhsil müəssisəsinin (mikro mühitin) sosial təcrübəsinə və fəaliyyət formalarına yiyələnmək deməkdir. Uyğunlaşma tələbə şəxsiyyətinin inkişafında xüsusi bir mərhələ olaraq xüsusi əhəmiyyət kəsb edir:

- uyğunlaşma prosesində şagirdlərin davranışlarını elə istiqamətləndirmək lazımdır ki, bu istiqamət onun şəxsi imicini təyin etsin və onların daha da inkişafını təmin etsin;
- uyğunlaşma prosesi şagirdlər tərəfindən yeni sosial funksiyaların, yeni davranış normalarının mənimsənilməsini təmin etməlidir;

Tələbələrin tələbə həyatına uyğunlaşma prosesi iki mərhələdən ibarətdir:

1. Sosial funksiyaların qəbulu;
2. Peşəkar rollar almaq.

Uyğunlaşmanın məzmunu və səviyyəsi insanın sosial və peşə yönümlərinin uyğunluq dərəcəsindən asılıdır.

Tələbələrin uyğunlaşma prosesini çətinləşdirən və bu səbəbdən onların yaxşı oxumalarına mane olan əsas amillər bunlardır:

- sistemli işləmək qabiliyyətinin olmaması;
- təlim proqramlarının çəkisi;
- vaxt çatışmazlığı, yetərincə vaxt olmaması;
- tənbəllik, həvəssizlik;

- öyrənmə motivlərinin qeyri-müəyyənliyi;
- seçilmiş ixtisasın şəxsi ehtiyaclarla uyğunsuzluğu.

Pedaqoji əməkdaşlığa əsaslanan təlim-idrak prosesinin təşkilində müəllimin böyük rolu danılmazdır. M. Əsgərova bununla bağlı olaraq yazır:" Müəllim-tələbə münasibətləri gənclərin təhsillənməsi ilə yanaşı onların şəxsiyyətlərinin təşəkkülünə və inkişafına yönəlir. Tələbə oğlan və qızlara humanist və demokratikcəsinə yanaşılması, təhsilalanların rəylərini, mülahizələrini, təşəbbüslərini nəzərə almaq-haqqında danışılan problemin mühüm istiqamətlərindən biridir" (4, s. 30).

Müəllimlə tələbənin pedaqoji əməkdaşlığını çətinləşdirən bir sıra səbəblər vardır ki, onların üzərində dayanmaq lazım gəlir. Bu səbəblərə M.Ə. Həmzəyev aşağıdakıları aid edirdi:

1. Tələbələrlə ünsiyyət qura bilməmək.
2. Tələbənin daxili psixoloji mövqeyini başa düşməmək.
3. Sinifdə idarəetmənin mürəkkəbliyi.
4. Pedaqoji hədəfdən asılı olaraq əlaqələr yarada və onları dəyişdirə bilməmək.
5. Ünsiyyətdəki çətinliklər və emosional münasibətləri materiala köçürə bilməmək.
6. Ünsiyyət prosesində zehni vəziyyətinizi idarə etmək çətinliyi (4, s. 188).

Müəllimlə tələbələrin əməkdaşlığı baş tutduqda, onların qarşılıqlı münasibətləri, ünsiyyəti düzgün qurulduqda uğurlar, yaxşı nəticələr və göstəricilər qazanılır, təhsilanlarda ruh yüksəkliyi, təlimə maraq yaranır. Bu mənada prof. A.N. Abbasovun və H.Ə. Əlizadənin müəllim şəxsiyyətinə aid etdiyi keyfiyyətlərin bəzilərini xatırlayaq:" Müəllim: uşaqlarına qayğı və məhəbbətlə yanaşmalı, sevinc və kədərlərini bölüşməlidir. Zəngin bir əxlaqa sahib olmalı və davranış və münasibətlərdə, ünsiyyət tərzində, geyimi və səliqəsində nümunə göstərməlidir. Uşaqlarınızı sevməlisiniz. Valideynlərin istəyi ilə onlara müraciət edilməli və heç bir səbəbə görə şagirdlər arasında fərq qoyulmamalıdır. Möhkəm iradəli, hövsələli və səbirli olmalı. Təlim-tərbiyə işləri apararkən yersiz özündən çıxmamalıdır" (2, s. 319).

**Problemin aktuallığı** Öyrənmə prosesində uşaqlar və yeniyetmələr əxlaqi idealları, davranış stereotiplərini və ətraf aləmlə bağlı fikirləri inkişaf etdirirlər. Bu səbəbdən də orta ixtisas təhsili sistemində təlim prosesində tələbə şəxsiyyətinin inkişafına təsir göstərən amilləri ortaya çıxarmaq olduqca böyük əhəmiyyət kəsb edir.

**Problemin yeniliyi** Araşdırma nəticəsində orta ixtisas təhsili müəssisələrində tələbə qrupunun səciyyəvi xüsusiyyətləri üzə çıxarılmış, fəaliyyət və fəallıq anlayışlarının mahiyyətinə aydınlıq gətirilmiş, təlim prosesində tələbə şəxsiyyətinin formalaşmasına təsir göstərən xarici amillərlə yanaşı, daxili amillərin də təsir istiqamətləri öyrənilmişdir.

**Problemin praktik əhəmiyyəti** Tələbələrinin bir şəxsiyyət kimi formalaşdırılmasının pedaqoji aspektlərinin və səciyyəvi xüsusiyyətlərinin öyrənilməsində, metodiki vəsaitlərin, monoqrafiyaların yazılmasında, elmi aspektə daxil olan fərqli simpozium və konfranslarda olan məruzə və çıxışların tərtibində istifadə edilmə imkanlarını zənginləşdirməklə yanaşı genişləndirir.

**Ədəbiyyat:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir -Bakı: Hüquq ədəbiyyatı, -2010, -80 s.
2. Abbasov, A.N. Pedaqogika /A.N. Abbasov, H.Ə. Əlizadə. -Bakı: Renessans, -2000.- 202 s.
3. Əliyeva, B.H. Təhsildə şəxsiyyət problemi / B.H. Əliyeva, R.V. Cabbarova. -Bakı: Təhsil, -2008. -125 s.
4. Əsgərova, M. Müəllim və tələbələrin əməkdaşlığı –yeni pedaqoji təfəkkürün mühüm tələbi kimi //-Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, -2015. № 1, -s. 30-34.
5. Hacıyeva, A. Tələbənin şəxsiyyət kimi formalaşması ali təhsil müəssisələrinin aktual problemi kimi // -Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, -2016. № 1, -s. 175-180.
6. Rüstəmov F. Ali məktəb həyatına adaptasiyanın pedaqoji əsasları // -Bakı: Ali təhsil və cəmiyyət, -2012. № 2, -s. 10-15.


**E-mail:** nabatahmadova377@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **K.R. Quliyeva**
*ped.ü.fəls.dok., dos.* **Ə.İ. İsmayılxanova**